*Nizamişünaslıq 12, №1, 2025, səh. 137-141*

https://doi.org/10.59849/3006-2403.2025.1.137

***Günay ƏLİYEVA***
***AMEA Şərqşünaslıq İnstitutu***
***BDU Şərqşünaslıq fakültəsinin magistrantı***
**aliyeva17@inbox.ru**

# NİZAMİ GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ"NDƏ ÜMUMBƏŞƏRİ VƏ DİNİ İDEYALAR

*Açar sözlər:* Tanrı, söz, şair, insan, inanc

## Giriş

Bəzi şəxsiyyətlər vardır ki, onlar yalnız öz dövrlərində deyil, bütün dövrlərdə şöhrət və hörmətə layiq olurlar. Bu insanlar bəzi yazıçılar, şairlər, alimlər və digər həqiqi rəhbər və bələdçilərdir. Ona görə "bəzi" sözündən istifadə etdik ki, bu şəxslərin çox az bir qismi həqiqətən tarix boyu yaşamağa və eyni zamanda öz fikirləri ilə insanları yaşatmağa qadirdirlər. Çünki onlar zamanın nəbzini tutmağı yox, bütün zamanlar üçün zərurət olan həqiqətin və doğruluğun nəbzini tutmağı bacaranlardır. Onların fikirləri dövr dəyişsə də, dəyişməzdir. Çünki onların ideya və nəsihətləri, eyni zamanda Tanrının qaydalarına və əmrlərinə söykənərək öz ölməzliyini qoruyub saxlayır. Dahi Nizami Gəncəvi də belə söz ustalarından biridir.

Müasir dövrümüzdə Nizami Gəncəvinin timsalında dahi şəxsiyyətlərə böyük diqqət yetirildiyi, onların əsərləri və ideyaları ildən-ilə daha çox tədqiq edildiyi halda, bu şəxslərin gələcək nəsillərə çatdırmaq istədiyi qayə və mənəvi dəyərlər sanki yalnız yazıda qalır. Dahilərin böyük mətləblərə toxunduqları əsərləri yazmalarının əsas səbəblərinə yetərincə diqqət yetirilmir. Bu tədqiqatda biz "Sirlər xəzinəsi" poeması nümunəsində Nizami Gəncəvinin şairlik məqsədini və ideya-estetik yönümünü daha dərindən anlamağa çalışacağıq. Eyni zamanda əsərdə yer alan ümumbəşəri və dini ideyaları müqəddəs Qurani-Kərim ayələrindən nümunələr əsasında şərh etməyə cəhd göstərəcəyik.

Şairin "Sirlər xəzinəsi" adlandırdığı bu əsər, həqiqətən də, insanın daxilindəki mənəvi cövhərə və daim axtarılan həyatın mənasına dair sirləri özündə ehtiva edir. Əsərdə zahirən sadə görünən hekayələr, daxilində gizlətdiyi dərin mənalar və çoxqatlı fikirləri ilə təkcə oxucunu deyil, həm də tədqiqatçını düşünməyə vadar edir. Allaha və İslama səmimi bağlılığı ilə tanınan şair, sağlığında "şeyx" adını qazanmışdır. O, əsərləri vasitəsilə İlahi həqiqətləri çatdırmağı qarşısına məqsəd qoymuş və bu niyyətini poetik dil ilə dəfələrlə ifadə etmişdir. Şair "Sirlər xəzinəsi"nin əvvəlində əsərin yazılma səbəbi ilə bağlı bu sözləri deyir:

"Dedim: sənin kəndində bir zəng çalsın əllərim,
Sənin eşq ocağına mən də bir nəfəs verim." [4, s.54]

Dahi şair bu beytində öz şeirlərinin Tanrının əmrlərini və istəklərini çatdırmaq üçün bir vasitə olduğunu bildirir. O Tanrının göstərdiyi həqiqəti ona verilmiş məharətlə təsvir edərək öz bəndəlik, qulluq vəzifəsini layiqincə yerinə yetirmişdir:

"Sənə məhəbbətimi vəsf etdim dönə-dönə
Qoy sənə qul xidmətim iftixar olsun mənə!" [4, s.56]

Beytdən aydın olduğu kimi şair öz peşəsini və yaradıcılığını Tanrıya sədaqət yoluna həsr etmişdir. Həmçinin o, bu işin nə dərəcədə şərəfli və dəyərli olduğunu hər kəsdən daha yaxşı bilirdi. Çünki bu yol bir şam kimi ətrafına işıq saçır, bütün insanlığı böyük bir amala gedən yolda birləşdirirdi. Mükəmməl söz sərrafı olan Nizami öz şöhrətini və qüdrətini İlahi gücə olan xidmətinin nəticəsi olaraq görür. Çünki o, müqəddəs Tanrını ucaltmaqla və Onu tanıtmaqla özü də yüksəlir, yazısı da, sözü də Tanrı ilə dəyər qazanır:

“Nizaminin torpağı güc-qüvvət almış Ondan,
Xırdaca bir danədir Tanrının dərgahından.” [4, s.27]
“Ayaq tozun olum ki, baş çəkim kəhkəşana,
Əl verməsən çatmaram, inan, şöhrətə, şana.” [4, s.56]

Fikirlərimizi M.Ə.Rəsulzadənin Nizami ilə bağlı fikirləri də təsdiqləyir: “Sirlər xəzinəsinin yazılmasındakı əsl məqsəd şairlik deyil, filosof və şeyx olan Nizaminin əxlaqi fikirlərini daxildən gələn bir istəklə oxuculara təlqin etməkdir. Yalnız bu baxımdan ona müstəqil bir kitab demək olar-din yayan bir müqəddəs kitab.” [3, s.99]

Nizamiyə görə, insan həyatını gözəlləşdirən ən ali dəyər yaxşılıqdır. [3, s.200] Bu prinsipi əsas götürən şair özü də bütün yaradıcığını bu qayəyə həsr etmişdir. O əsərlərində Haqq Təalanın yolunu nişan verərək, yolunu azanlara, həqiqət axtarışında olanlara bələdçilik etmişdir. Doğru və yanlışı ən gözəl və təsirli şəkildə təsvir etmişdir.

Nizaminin ideal obrazları, sanki Yer üzünün əşrəfi olan insanı ən kamil halına və ən layiqli mərtəbəyə çatdırmağa çalışır. Onun yaratdığı ideal insan surətləri sufilərin “insan-i kamil” adlandırdıqları mükəmməl insan obrazı ilə, eyni zamanda alman fəlsəfəsində, xüsusilə də Fridrix Nitşenin “üst insan” (Übermensch) anlayışı ilə müəyyən mənada bənzərlik təşkil edir. [3, s.201] Fikirlərinin mənbəyini Qurani-Kərimdən götürmüş şair müqəddəs kitabda buyurulduğu kimi, insanı yer üzünün xəlifəsi hesab edir. Uca Allah insana ağıl və iradə bəxş etməklə onu elə xəlq etmişdir ki, o, öz iradəsi və qulluğu ilə mələklərdən üstün bir zirvəyə çata bilər. Həmçinin pislikləri və küfrü ilə heyvandan daha aşağı bir səviyyəyə enə bilər. İndi isə Nizaminin sözləri ilə Qurani-Kərim arasındakı bənzərliyə nəzər yetirək:

“Boş sevdadan əl üzmək – böyüklük əlaməti,
Nəfsi ram edə bilmək – peyğəmbərlik qüdrəti.” [4, s.128]

*(Ey peyğəmbər!) Vaxtilə sənin Rəbbin mələklərə: “Mən yer üzündə bir xəlifə yaradacağam”, - demişdi.* [2, Bəqərə 30]

*Mələklərin hamısı birlikdə səcdə etdi, yalnız İblisdən başqa! O təkəbbür göstərdi və kafirlərdən oldu.* [2, Sad 73-74]

Şairin, nəfsini ram etmiş insanı peyğəmbər qüdrətində bir varlıq kimi dəyərləndirməsi Qurandakı iki mühüm ayə ilə səsləşir. Birinci ayədə Allah insanı mələklərdən üstün tutaraq onlara Adəmə səcdə etməyi əmr edir və onu yer üzünün xəlifəsi elan edir. Lakin digər bir ayədə insanın haqq yoldan saparaq, inkar və şirk yolunu seçməsi halında, onu heyvandan da alçaq bir mərtəbəyə enə biləcək bir varlıq kimi təsvir edir:

*Yoxsa sən onların əksəriyyətinin söz dinləyəcəyini, yaxud düşünəcəyinimi zənn edirsən? Onlar heyvan kimidirlər, hətta daha da azğın bir yoldadırlar.* [2, Furqan 44]

Nəfsin insanı düçar etdiyi ən böyük qəflətlərdən biri də təkəbbürdür. Yuxarıda Sad surəsindən gətirdiyimiz nümunədə Uca Allah buyurur ki, İblis təkəbbür göstərərək Adəmə səcdə etmədi. Təkəbbür və lovğalıq isə Allah qatında ən sevilməyən xüsusiyyətdir. Hətta Şeytanın cənnətdən qovulmasına səbəb olan tək amil onun təkəbbürü olmuşdur. Təvazökarlığın gözəlliyinə agah olan şair əsərlərində bu mövzuya tez-tez müraciət etmişdir:

“Sən tikan deyilsən ki, ucalıqlara meyil edəsən,
Yaxşısı budur ki, gül kimi başsız-ayaqsız ol.” [5, s.103]

“Sirlər xəzinəsi”nin “Qəflətin məzəmməti” məqalətindən olan bu beytdə “tikan” sözü ilə şair təkəbbürə işarə edir. Ucalıqlara meyl etməni insanın özünü digərlərindən üstün görməsi ilə əlaqələndirən şair insanı gül kimi lətafətli olmağa səsləyir. O, gülü təvazökarlıq simvolu olaraq görür. “Başsız-ayaqsız gül” ifadəsi ilə Nizami başını yerə əymiş, insanlara sevgi və gözəllik bəxş edən bir qönçəni, yəni əslində təvazökar insanı təsvir edir. [5, s.103-104]

Şair, təvazökarlıq və sadəlik kimi dəyərləri tez-tez ön plana çəksə də, insan psixologiyasına, davranışın incəliklərinə dərindən bələd olduğu üçün öz şeirlərində yalnız birtərəfli nəsihətlərlə kifayətlənməmiş, yeri gəldikdə sərtliyin mülayimlikdən, təkəbbürün təvazökarlıqdan üstün olduğunu da vurğulamışdır. Buna misal olaraq Leyli və Məcnun poemasındakı bu bəndə nəzər salaq:

"Gül kimi incə təbiətliliyi bir kənara qoy,
Bənövşə kimi ikiüzlü olma.
Yer var ki, tikan olmaq məsləhətdir.
Bəzən dəlilik də işə yarayır." [1, s.18]

Sirlər xəzinəsindən gətirdiyimiz nümunədə təvazökarlığı nəsihət edən şair, bu beytlərində yeri gəldikdə təkəbbürü məsləhət bilir. Dahi şairin bu sözlərinin mahiyyətcə bənzəri öz əksini Quran ayələri və hədislərdə də tapır. Sülh və barış dini olan İslam mülayimliyi, humanizmi təbliğ etsə də, zalıma və kafirə qarşı sərtliyi əmr edir:

*Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (bilsin ki) Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar.* [2, Maidə 54]

Həmçinin dini mətnlərdə rəvayət olunan "Təkəbbürlüyə qarşı ikiqat təkəbbürlü ol", "Təkəbbürlüyə qarşı təkəbbürlü olmaq sədəqədir" kimi hədislər hər bir keyfiyyətin doğru yerdə və doğru zamanda işlədilməli olduğunu bizə xatırladır. Bu ifadələr təkəbbürlüyə göstəriləcək təvazökarlığın onun təkəbbüründən qaynaqlanan azğınlığı artıracağını bildirmək məqsədilə söylənilmişdir. Qəlbin xəstəliklərindən biri olan təkəbbürün qarşısını alacaq hər bir rəftar bu xəstəliyə sanki məlhəmdir. Bu nöqteyi-nəzərdən hədisdə təkəbbürlü şəxsə qarşı göstəriləcək təkəbbür sədəqə ilə eyniləşdirilib. Nizami Gəncəvi də yuxarıdakı beytlərində bu baxış bucağından yola çıxaraq insanın öz rəftarında tarazlığı qorumalı olduğunu bildirmişdir.

Nizami Gəncəvinin "Sirlər xəzinəsi"nin əsas motivlərindən biri də ümid və inamdır. Şair insana müraciət edərək haqsızlıq və zülm dolu həyatı görüb ümidsizliyə düçar olan insanın inamına sarılmalı olduğunu bildirir. O, hər qaranlıq gecənin bir işıqlı sabahı olduğunu, hər qara buluddan sonra rəhmət yağışının gələcəyini oxucuya çatdırır. Lakin o, bunun insanın iradəsi ilə, ətrafındakı haqsızlıqlara qarşı mübarizə aparması ilə mümkün olacağını da qeyd edir [1, s.18]. Güclü inanca sahib şair inamın gücünü belə təsvir edir:

"O kimsə ki, bəsləyir yəqinliyə sədaqət,
Onun işinin sonu səadətdir, səadət. [4, s.124]
Bir azca şadlanıram dərdim, qəmim olanda,
Çünki sevinc müjdəsi gətirir qəm cahanda." [4, s.123]

Sonuncu beyt bizə Qurani-Kərimin Şərh surəsini xatırladır:

*Şübhəsiz ki, hər çətinliklə birlikdə bir asanlıq vardır.* [2, Şərh 5]

Sözünün gücünə arxalanan, bunu əsərlərində tez-tez dilə gətirən şair öz missiyasınının nə dərəcədə əhəmiyyətli olduğunu çox yaxşı bilir və şairliyi müqəddəs bir peşə olaraq görür:

"Mətanət meydanında kimlər tutdu gör səfi,
Əvvəlcə peyğəmbərlər, sonra şairlər səfi." [4, s.60]

Nizami Gəncəvi, bu beytdən də göründüyü kimi, şairin məqamını peyğəmbər məqamına yüksəldir. Təəssüf ki, çox zaman hər hansı bir nəzmlə fikrini ifadə edən şəxs bu yüksək məqama layiq görülərək "şair" adlandırılır. Halbuki Nizaminin şairi peyğəmbərlə müqayisə etməsinin əsas səbəbi, onun da peyğəmbərlər kimi həqiqət elçisi olmasıdır. Həm şair, həm də peyğəmbər vasitəçidirlər – cəmiyyəti, xalqı və bütövlükdə bəşəriyyəti doğru yola dəvət edir, onları haqqa, ədalətə və mənəvi kamilliyə çağırırlar. Onlar agah olduqları dərin bilikləri yalnız bir xalqa və ya millətə deyil, bütün bəşəriyyətə çatdırırlar. Bu bilik, əslində, insanlığın ortaq sərvəti və mənəvi xəzinəsidir.

Ümumbəşəri mövzulara toxunan və onları dərin fəlsəfi məna ilə çatdıran Nizami bu səbəbdən "ümumbəşəri şair" kimi tanınır. Çünki şairi şair edən yalnız sözlərin nizamı deyil – həqiqi şair, Nizami Gəncəvinin timsalında, kainatın nizamını qorumaq və Tanrının hökmünü bərqərar etmək missiyası ilə yazıb-yaradan şəxsdir. Məhz buna görə əsl adı İlyas olan bu böyük sənətkar "Nizami" təxəllüsünü götürərək bütün yaradıcılığını Haqqın nizamına xidmətə həsr etmişdir.

ƏDƏBİYYAT

1. Rüstəmova. Nizami Gəncəvi: həyatı və sənəti. Bakı: Elm 1979, 212 s.
2. Qurani-Kərim
3. M. Ə. Rəsulzadə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr 1991, 232 s.
4. N. Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Lider 2004, 264 s.
5. S. Hacı. Həzrət Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" məsnəvisinin şərhi (XIV-XVII məqalələr). Bakı: Nafta-Press 2016, 728 s.

***Гюнай АЛИЕВА***

## УНИВЕРСАЛЬНЫЕ И РЕЛИГИОЗНЫЕ ИДЕИ В СОКРОВИЩНИЦЕ ТАЙН НИЗАМИ ГЯНДЖЕВИ

***РЕЗЮМЕ***

*Ключевые слова:* Бог, слово, поэт, человек, вера

Великий поэт и философ Азербайджана Низами Гянджеви известен во всем мире своими общечеловеческими идеями. Главная причина этого в том, что поэт обращался ко всему человечеству, независимо от расы, национальности или вероисповедания. Самая важная черта, отличающая Низами Гянджеви от других выдающихся деятелей классической литературы, заключается в том, что он искусно представил в своих произведениях человеческие и непреложные ценности. Большинство этих возвышенных идей черпают свою духовную силу и божественное вдохновение из Корана. Первое произведение поэта «Сокровищница тайн», в отличие от других поэм, не построено на единой сюжетной линии. Произведение представляет собой сборник рассказов и статей, объединенных вокруг различных тем. В этой поэме Низами затрагивает ряд духовных и социальных вопросов, волнующих людей, и представляет читателю карту пути к совершенству и счастью. Произведение, как носитель основных идей Низами, имеет в этом отношении особое значение.

***Gunay ALİYEVA***

## UNİVERSAL AND RELİGİOUS IDEAS İN THE TREASURY OF MYSTERİES OF NİZAMİ GANJAVİ

***SUMMARY***

*Key words:* God, word, poet, human, faith

Nizami Ganjavi, a great Azerbaijani poet and philosopher, is known worldwide for his universal ideas. The main reason for this is that the poet addressed all of humanity, regardless

of race, nationality, or religion. The most important feature that distinguishes Nizami Ganjavi from other prominent figures of classical literature is that he skillfully presented human and immutable values in his works. Most of these noble ideas derive their spiritual power and divine source from the Holy Quran. The poet's first poem, "The Treasury of mysteries," included in "Khamsa," unlike other poems, is not built on a single plot line. The work is a collection of stories and articles united around various themes. In this poem, Nizami touches on a number of spiritual and social issues that concern people, and presents the reader a map of the path leading to perfection and happiness. This poem, as the bearer of Nizami's main ideas, holds particular significance.

***Daxil oldu: 22.05.2025-ci il***